# Türkiyə Təqaüdləri

TÜRKİYE SCHOLARSHIPS BURSLARI

/ turkiyeburslari

TÜRKİYE SCHOLARSHIPS BURSLARI

# 01
## TÜRKİYƏ BURSLARI


**Rəqəmlərlə Türkiyə Bursları** 06

**Təqaüd İmkanları** 08

**Təqaüd Proqramları** 09

- Orta İxtisas Proqramları
- Bakalavr Proqramları
- Magistratura və Doktorantura Proqramları
- Qısa Müddətli Proqramlar


# 02
## NAMİZƏDLƏR


**Müraciət** 12

**Tələb Olunan Sənədlər** 13

**Müraciət Şərtləri** 14

**Seçim Prosesi** 15

**Müsahibə Qiymətləndirmə Meyarları** 15



# İÇİNDƏKİLƏR

## 03
## MÖVCUD TƏLƏBƏLƏR


Yeni Tələbə Bələdçisi 16
Türk Dili Hazırlıq Kursu 17
Təqaüd Prosesi 17
Mədəni və Akademik İnkişaf 18
Xarici Tələbələr Akademiyası 18
Xarici Tələbələrin Təcrübə Proqramı 18
Xarici Tələbələr Elmlər Konqresi 19
Xarici Tələbə Mükafatları 19


## 04
## MƏZUNLAR


Xarici Tələbələrin Məzuniyyət Günü 20
Məzun Şəbəkəsi 21
Məzun Dərnəkləri 21


## 05
## MÜRACİƏT TƏQVİMİ

Türkiyə Bursları; dünyanın müxtəlif bölgələrindəki tələbə və tədqiqatçılara Türkiyənin ən yaxşı universitetlərində tam zamanlı və ya qısa müddətli proqramlardan faydalanmaları üçün verilən və dövlət tərəfindən dəstəklənən rəqabətli təqaüd proqramıdır.



# ÜMUMI MƏLUMATLAR

Türkiyə Təqaüdləri, ali təhsil pilləsinin hər mərhələsində olan bacarıqlı xarici tələbələrə sadəcə təhsil təqaüdü verməklə kifayetlenmir, eyni zamanda bu tələbələrin universitetə hazırlıq və yerləşdirilmə proseslərini də əhatə edir.



# RƏQƏMLƏRLƏ TÜRKİYƏ BURSLARI



Halhazırda 15 mindən artıq şəxsə təqaüd verilir.

– Hər il təxminən 5 min yeni təqaüd verilir.

Bursun sağladığı olanaklar:

- UNİVERSİTET VƏ İXTİSASA YERLƏŞDİRİLMƏ
- AYLIQ TƏQAÜD
- TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİ
- TÜRK DİLİ KURSU

# ÜMUMI MƏLUMATLAR



Dünya üzrə təqaüdlərdən indiyədək faydalanmış təxminən 150 min məzun var.

Türkiyə Təqaüdlərinə hər il dünyanın müxtəlif bölgələrindən təxminən 125 min müraciət daxil olur.

Türkiyə Bursları müsahibələri təxminən 100 ölkədə keçirilir .

**SAĞLAMLIQ SIĞORTASI**

**YATAQXANA İMKANI**

**BİR DƏFƏLİK AVİABILET**

**MƏDƏNİ VƏ AKADEMİK FƏALİYYƏTLƏR**

# TƏQAÜD İMKANLARI

## Universitet və ixtisasa yerləşdirilmə

## Aylıq Təqaüd

Bakalavr və Orta İxtisas səviyyəsində:
Aylıq **4.500**

Magistratura səviyyəsində:
Aylıq **6.500**

Doktorantura səviyyəsində:
Aylıq **9.000**

Tədqiqat Təqaüdləri:
Aylıq **25.000** *

## Təhsil Haqqının Ödənilməsi

## Türk Dili Kursu (1 il)

## Sağlamlıq Sığortası

## Yataqxana Təminatı

## Bir dəfəlik gediş-dönüş aviabilet

Universitet təhsili ilə yanaşı, tələbələrin mədəni və peşəkar inkişafı da dəstəklənir:

- MƏDƏNİ FƏALİYYƏTLƏR
- TƏCRÜBƏ İMKANLARI
- UNİVERSİTETLƏR VƏ QHT-LƏRLƏ ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL OLUNAN SEMİNAR PROQRAMLARI

* Tədqiqat Təqaüdləri yalnız aylıq cib xərclərindən ibarətdir.

# Təqaüd Proqramları

Türkiyə Təqaüdləri; prioritet təhsil sahələrinə əsasən, hər təhsil pilləsi, bölgə və ölkə üçün hazırlanmış bir sıra proqramlar təqdim edir. Namizədlər Türkiyə Təqaüdləri Məlumat Sistemi (TBBS) vasitəsilə universitet və akademik proqramlar haqqında onlayn məlumat kitapçasını əldə edə bilərlər.

# Orta İxtisas Təqaüd Proqramları

İki illik orta ixtisas proqramları tələbələrə peşəkar bilik və bacarıq qazandıraraq karyeralarına yön vermək imkanı yaradır. Mövcud ixtisas və universitetləri görmək üçün internet saytımızı ziyarət edə bilərsiniz.

# Bakalavr Təqaüd Proqramları

Bakalavr Təqaüd Proqramı, bakalavr pilləsindəki müraciətçilər üçün xüsusi olaraq hazırlanmış bir proqramdır. Mühəndislikdən tibbə, humanitar elmlərdən sosial elmlərə qədər müəyyən edilmiş müxtəlif mövzu və dərslərə maraq göstərən şəxslər bu proqrama müraciət edə bilərlər. Mövcud ixtisas və universitetləri görmək üçün internet saytımızı ziyarət edə bilərsiniz.

# Magistratura və Doktorantura Təqaüd Proqramları

Türkiyənin prestijli universitetlərində; sosial elmlər, humanitar elmlər, təbiət elmləri və mühəndislik sahələrində magistratura və doktorantura səviyyələrində müxtəlif proqramlar təklif edilir. Mövcud ixtisas və universitetləri görmək üçün internet saytımızı ziyarət edə bilərsiniz.

# Yüksək Nailiyyət Təqaüdü

Akademik uğuru yüksək olan Türkiyə Burslusu tələbələrinə Yüksək Nailiyyət Təqaüdü çərçivəsində aylıq təqaüd məbləğləri, təhsil aldıqları səviyyə üçün müəyyən edilmiş aylıq təqaüd məbləğinin 2 qatına qədər ödənir. Yüksək Nailiyyət Təqaüdü həm namizədlər, həm də mövcud Türkiyə Burslusu tələbələri üçün nəzərdə tutulmuşdur. Müraciət şərtlərini görmək üçün internet saytımızı ziyarət edə bilərsiniz.



# QISA MÜDDƏTLİ PROQRAMLAR

## Nailiyyət Təqaüdü Proqramı

Nailiyyət Proqramı, hal-hazırda Türk universitetlərində öz imkanları ilə təhsil alan və əla akademik performans göstərən tələbələr üçün xüsusi olaraq hazırlanmış bir proqramdır. Nailiyyət Təqaüdü Proqramı yalnız aylıq cib xərclərini əhatə edir.

## Tədqiqat Təqaüdü Proqramı

Tədqiqat Təqaüdü Proqramı; beynəlxalq tədqiqatçılar və akademiklərin, Türkiyənin ən prestijli universitetlərində türk akademikləri ilə birlikdə öz sahələrində akademik tədqiqat əməkdaşlığı edə bilmələrini təşviq etmək məqsədilə hazırlanmış bir proqramdır. Proqrama, doktorantura təhsilini tamamlamış və ya doktorantura dissertasiya mərhələsində olan namizədlər müraciət edə bilərlər.



## UNUTMAYIN

**Bəzi ixtisas və proqramlar üçün əlavə meyarlar ola bilər. Həmin əlavə meyar və şərtlər haqqında ətraflı məlumat almaq üçün əlaqədar ixtisasların internet saytlarını və onlayn müraciət səhifələrini yoxlayın.**

# NAMIZƏDLƏR

## Müraciət

Türkiyə Təqaüdlərinə müraciətlər internet üzərindən pulsuz olaraq edilə bilər. Namizədlər, aşağıdakı linkləri istifadə edərək müraciət edə bilərlər:

**www.turkiyeburslari.gov.tr**

və ya

**www.turkiyescholarships.gov.tr**

- **Türkiyə Təqaüdləri üçün müraciət vaxtları, Türkiyə Təqaüdlərinin rəsmi internet saytında elan edilir.**
- **Müraciətlər; Türk dili, ərəb dili, ingilis dili, fars dili, fransız dili, rus dili, boşnak dili və ispan dili olmaqla 8 dildə edilə bilər.**

# Lazımi Sənədlər

İnternet üzərindən ediləcək müraciətlər üçün bütün namizədlərin aşağıdakı sənədləri təqdim etməsi vacibdir:

- İstifadə müddəti bitməmiş bir şəxsiyyət vəsiqəsi/kartı və ya pasport
- Namizədin yaxın tarixdə çəkilmiş bir fotosu
- Varsa, Dövlət İmtahan Nəticələri
- Diplom və ya müvəqqəti məzuniyyət şəhadətnaməsi (Məzuniyyətinin son ilində olan namizədərdən tələb edilmir)
- Akademik qiymət cədvəli – Transkript
- Seçilmiş proqram tərəfindən tələb edildiyi təqdirdə beynəlxalq imtahan nəticələri (GRE, GMAT və s.)
- Dil imtahanı nəticələri (seçilmiş proqram tərəfindən tələb edildiyi təqdirdə)
- Tədqiqat mövzusu təklifi və apardığınız işlərə dair yazılı bir nümunə (yalnız doktorantura müraciətləri üçün)



# ƏSAS MEYARLAR

- Minimum Akademik Nailiyyət Dərəcəsi:
  - Bakalavr proqramlarına müraciət edən namizədlər üçün: %70
  - Sağlamlıq elmlərinə (Tibb, Diş Həkimliyi və Əczaçılıq) müraciət edən namizədlər üçün: %90
  - Magistratura və doktorantura proqramlarına müraciət edən namizədlər üçün: %75
- Minimum Yaş Məhdudiyyətləri:
  - Orta İxtisas proqramları üçün 21 yaşın altında olmaq
  - Bakalavr proqramları üçün 21 yaşın altında olmaq
  - Magistratura proqramları üçün 30 yaşın altında olmaq
  - Doktorantura proqramları üçün 35 yaşın altında olmaq
  - Tədqiqat proqramları üçün 50 yaşın altında

## UNUTMAYIN

- **Hazırda Türkiyədə təhsil alan tələbələr, hal-hazırda təhsil aldıqları səviyyə üçün müraciət edə bilməzlər.**
- **Qısa müddətli Təqaüd Proqramları üçün əlavə müraciət şərtləri tələb oluna bilər.**
- **Zəhmət olmasa, müraciət zamanı ərzində lazım olan şərtləri yoxlayın.**
- **Sağlamlıq Elmləri sahəsində ixtisaslaşma Türkiyə Təqaüdləri tərəfindən qarşılanmır.**

# SEÇİM PROSESİ

Türkiyə Təqaüdləri üçün edilən müraciətlər; namizədin akademik uğuruna, dərsdənkənar fəaliyyətlərinə və digər peşəkar uyğunluqlarına əsasən qiymətləndirilir.

## 1 İLKİN İNCELEME

Bütün müraciətlər; minimum akademik bal, yaş məhdudiyyəti, lazım olan sənədlər kimi əsas meyarlar əsasında yoxlanılır.

## 2 QİYMƏTLƏNDİRMƏ

Uyğun görülən namizədlərin müraciətləri; akademik vəziyyət, əvvəlki uyğunluqlar, akademik maraq sahələri, karyera hədəfləri, seçimlərinin uyğunluğu, niyyət məktubunun məzmunu/anlaşılanlığı və sosial fəaliyyətlərə qatılmaq kimi bir sıra meyarlara əsasən Mütəxəssis Komitəsi tərəfindən diqqətlə yoxlanılır. Bu mərhələdən sonra, müsahibə prosesi üçün uyğun namizədlərin son siyahısı tərtib edilir.

## 3 MÜSAHİBƏ

100-dən çox ölkədən seçilərək son siyahıya alınan namizədlər, akademiklər və ekspertlərdən ibarət müsahibə komitələri tərəfindən qiymətləndirilir.

### Müsahibələr necə keçirilir?

Uyğun namizədlər öz ölkələrində keçiriləcək müsahibələrə dəvət edilir. Bəzi hallarda, müraciət edənlərlə internet və ya telefon üzərindən müsahibə aparılır. Müsahibə komitəsi, adətən, ən azı bir Türkiyə Təqaüdləri nümayəndəsi və Türk universitetlərindən gələn akademik heyətdən ibarət olur. Adətən 15-30 dəqiqə davam edən müsahibə, aşağıda göstərilən formatda keçirilir:

- Qarşılama və giriş
- Sənədlərin yoxlanılması
- Namizədin müraciət məqsədinin öyrənilməsi
- Akademik bilik və karyera hədəfləri
- Bağlanış və namizədin komitəyə sual verməsi

## 4 SEÇİM

Müsahibə komitələri tərəfindən namizəd olaraq müəyyən edilən müraciətçilərin müsahibə nəticələri, seçim komitəsi tərəfindən qiymətləndirilir və təqaüd alacaq müraciətçilərin siyahısı hazırlanır.

## 5 QƏBUL

Müsahibədə uğur qazanaraq təqaüd almağa layiq görülən namizədlərə Türkiyə Təqaüdləri Məlumat Sistemi (TBBS) üzərindən və e-poçt vasitəsilə qəbul məktubu göndərilir və təqaüd qəbul prosesi ilə bağlı məlumat verilir. Namizədlər, Türkiyəyə gəlmədən əvvəl Türkiyə Burslarının öhdəliklərinə dair sənəd işlərini həyata keçirirlər.

## Yeni Tələbə Bələdçisi

Türkiyə Təqaüdü ilə təhsil almağa haqq qazanan tələbələrin Türkiyəyə gəlməzdən əvvəl və gəldikdən sonra yerinə yetirməli olduqları prosedurlar və ümumi məlumatları ehtiva edən yeni tələbə bələdçisinə **www.turkiyeburslari.gov.tr** ünvanından əldə edilə bilər.

## Türk Dili Hazırlıq Kursu

### Türkiyə Təqaüdləri çərçivəsində ölkəmizdə yüksək təhsilə qəbul olunan tələbələrdən Türk dili bilməyənlərə 1 il müddətinə pulsuz Türk dili hazırlıq kursu verilir.

Türk dili hazırlıq təhsili yalnız Türk dili ilə təhsil verən bölüm və proqramlar üçün deyil, ingilis dili və digər xarici dillərlə təhsil verilən bölüm və proqramlara yerləşən və Türk dili bilməyən bütün tələbələr üçün məcburidir. Türk dili hazırlıq təhsili, tələbələrin universitet təhsilini alacaqları şəhərlərdə yerləşən Türk dili tədrisi mərkəzlərində (TÖMER) verilir. 8 ay davam edən və iyun ayında başa çatan Türk dili hazırlıq kursunun sonunda tələbələrin C1 səviyyəsində Türk dili Yeterlilik Sertifikası alması gözlənilir.

## Təqaüd Prosedurları

Türkiyə Təqaüdü ilə təhsil alan tələbələrin təqaüd prosedurları Xarici Türklər və  Əqrəbə vİcmalar Başqanlığı (YTB) tərəfindən həyata keçirilir. Bu çərçivədə tələbələrin;

- aylıq təqaüd ödənişləri,
- banka əməliyyatları,
- Sağlamlıq Sığortası Əməliyyatları,
- icazə əməliyyatları,
- akademik izləmə əməliyyatları həyata keçirilir.

## Mədəni və Akademik İnkişaf

Xarici tələbələrin sosial, mədəni və akademik inkişaflarına töhfə vermək məqsədilə Türkiyə Bursları çərçivəsində bir çox fəaliyyət və layihələr həyata keçirilir.

## Xarici Tələbələr Akademiyası

Xarici Tələbə Akademiyası ilə Türkiyə Təqaüdü ilə təhsil alan tələbələr başda olmaqla, ölkəmizdə ali təhsil alan beynəlxalq tələbələrin universitet təhsilindən əlavə akademik, sosial və mədəni bacarıqlarının gücləndirilməsi hədəflənir. Müxtəlif vətəndaş cəmiyyəti təşkilatları və araşdırma mərkəzləri ilə koordinasiyalı olaraq 17 şəhərdə müxtəlif sahələrdə seminarlar, ixtisaslaşma proqramları və mədəniyyət-sənət atelyeləri keçirilir.

## Xarici Tələbələrin Təcrübə Proqramı

Xarici Tələbələr Təcrübə Proqramı, Türkiyə Bursları çərçivəsində təhsil alan xarici tələbələrin iş həyatında təcrübə qazanmalarına dəstək olmaq məqsədilə müxtəlif şəhərlərdə yay dövründə həyata keçirilir. Türkiyə Təqaüdü ilə təhsil alan tələbələrin təhsil müddətində qısa müddətli iş təcrübəsi əldə etmələrinə yönəlik 2021-ci ildən etibarən həyata keçirilən Beynəlxalq Tələbə Təcrübə Proqramı çərçivəsində tələbələrə dövlət və özəl sektorda təcrübə imkanı verilməkdədir.

## Xarici Tələbələrin Elmlər Konqresi

Türkiyə Bursları çərçivəsində ölkəmizin universitetlərində ali təhsil alan xarici tələbələrin akademik biliklərinin inkişafına dəstək olmaq və iştirakçılara elmi iş ortaya çıxarmağa yardım etmək məqsədilə Xarici Tələbələrin Elmlər Konqresi proqramı həyata keçirilir. Konqres çərçivəsində Sosial və Humanitar Elmlər, Təbiət və Mühəndislik Elmləri, Sağlamlıq Elmləri və Konqresin Xüsusi Mövzusu sahələrində məruzələr qəbul edilir.

## Xarici Tələbə Mükafatları

Başqanlığımız tərəfindən Türkiyədə ali təhsil alan xarici  tələbələrin sahib olduqları bacarıq, bilik və təcrübələrini paylaşmaları, bu çərçivədə ortaya qoyduqları dəyərli əsərlərin və fikirlərin dəstəklənməsi məqsədilə hər il Xarici Tələbə Mükafatları təşkil edilir. Mədəniyyət-sənət, ədəbiyyat, media, layihə kimi müxtəlif sahələrdə uğur qazanan xarici tələbələrə təşəkkür və dəstək göstərilərək karyera inkişaflarına kömək edilir.

# MƏZUNLAR

## Xarici Tələbələr Məzuniyyət Günü

Xarici Tələbələr Məzuniyyət Proqramı, 2012-ci ildən bəri hər il təşkil olunur. Bu proqram; Türkiyədəki təhsil macəralarını tamamlayaraq Türkiyə Məzunları ailəsinə qatılan tələbələri bir araya gətirən bir tədbirdir.



## Məzun Şəbəkəsi

Türkiyə Bursları olaraq, məzunlarımızla daimi əlaqələr qurmanın vacib olduğunun fərqindəyik və müxtəlif fəaliyyətlər vasitəsilə Türkiyə Məzunları ilə iqtisadi, siyasi, mədəni və akademik əlaqələrimizi davam etdirməyi hədəfləyirik. Türkiyə Burslarının, 184 ölkədə təxminən 150 min üzvü olan bir məzunlar topluluğu mövcuddur. Məzun üzvlər ilə əlaqələrimizi gücləndirmək məqsədilə 50-dən çox ölkədə 100-ə yaxın məzun görüşləri təşkil edilmişdir. Bu çərçivədə, məzun dərnəklərinin qurulmasına yönəlik layihələr və məzunlarımıza dair digər təşkilati fəaliyyətlər dünyanın hər yerində dəstəklənir.

## Məzun Dərnəkləri

Türkiyə Məzunları ilə davamlı bir əlaqə qurulması məqsədilə bir çox ölkədə məzunlar tərəfindən könüllü məzun dərnəkləri yaradılmışdır. Bu sayədə, Türkiyə Məzunlarının həm Türkiyə ilə, həm də bir-biriləri ilə qurumsallaşdırılmış əlaqələrinə imkan verilir. Dünyanın bir çox ölkəsindəki Məzunlar Dərnəkləri vasitəsilə, proqramdan məzun olan tələbələr həm akademik, həm də sosial əlaqələrini davam etdirir və digər gəncləri öz ölkələrində Türkiyənin təhsil imkanları barədə məlumatlandırırlar.

TÜRKİYE MEZUNLARI

Türkiyə Məzunları haqqında daha çox məlumat üçün:

**www.turkiyemezunlari.gov.tr**

# MÜRACİƏT TƏQVİMİ

| BAKALAVR VƏ DOKTORA TƏQAVÜDLƏRİ | |
|---|---|
| **Əməliyyatlar** | **Tarix** |
| Müraciət Prosesi | 10 Yanvar - 20 Fevral |
| Dəyerləndirmə Prosesi | Mart - Aprel - May |
| Müsahibe prosedürü | İyun - İyul |
| Nəticələrin Açıqlanması | Avqust ayının əvvəli |
| Öhdəlik Qəbul Etmə Sənədi və Viza Müraciət Prosesi | Avqust |
| Tələbələrin Türkiyəyə Yolu: Akademik ilin başlanğıcı* | Sentyabr |

*Seçilən namizədlər, müraciət nəticələrini yay aylarında alacaqlarını nəzərə almalı və məzuniyyətlərini təsdiq edən sənəd və diplomalarını Türkiyəyə səyahətlərindən əvvəl əldə etmək üçün öz ölkələrində lazımi hazırlıqları görməlidirlər.

| TƏDQIQAT TƏQAÜDLƏRI | |
|---|---|
| **Əməliyyatlar** | **Tarix** |
| 1-ci Dövr Müraciətləri | 1 Yanvar - 31 Mart |
| 1-ci Dövr Müraciət Nəticələrinin Açıqlanması | Aprel |
| 2-ci Dövr Müraciətləri | 1 Aprel - 30 İyun |
| 2-ci Dövr Müraciət Nəticələrinin Açıqlanması | İyul |
| 3-cü Dövr Müraciətləri | 1 İyul - 30 Sentyabr |
| 3-cü Dövr Müraciət Nəticələrinin Açıqlanması | Oktyabr |
| 4-cü Dövr Müraciətləri | 1 Oktyabr - 31 Dekabr |
| 4-cü Dövr Müraciət Nəticələrinin Açıqlanması | Yanvar |

| NAILIYYƏT TƏQAÜDLƏRI | |
|---|---|
| **Əməliyyatlar** | **Tarix** |
| Mücaiət dönəmi | Oktyabr-Noyabr |
| Qiymətləndirmə Prosesi | Noyabr-Dekabr |
| Nəticələrin Açıqlanması | Dekabr |

Təqaüd proqramları və bu proqramlara necə müraciət edə biləcəyiniz haqqında daha ətraflı məlumat almaq üçün aşağıdakı linklərə daxil ola bilərsiniz:

**www.turkiyeburslari.gov.tr**
**www.turkiyescholarships.gov.tr**

Çağrı mərkəzimiz vasitəsilə də bizimlə əlaqə saxlaya bilərsiniz:
**0850 455 0982**

Suallarınız üçün:
**info@turkiyeburslari.gov.tr**

# Türkiyə Təqaüdləri

www.turkiyescholarships.gov.tr